UOT 371

***Nübar Əhmədəli qızı Həsənova***
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*Azərbaycan Turizm və Menecment Universiteti*

# AZƏRBAYCANDA QADIN TƏHSİLİNİN İNKİŞAFI (*XIX ƏSRİN SONU XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ*)

***Нубар Ахмадали гызы Гасанова***
*докторант по программе доктора философии*
*Азербайджанский Университет Туризма и Менеджмента*

# РАЗВИТИЕ ЖЕНСКОГО ОБРАЗОВАНИЯ В АЗЕРБАЙДЖАНЕ (*В КОНЦЕ XIX - НАЧАЛЕ XX ВЕКА*)

***Nubar Ahmadali Hasanova***
*doctorial student in the program of doctor of philosophy*
*Azerbaijan Tourism and Management University*

# DEVELOPMENT OF WOMEN'S EDUCATION IN AZERBAIJAN (*LATE XIX CENTURY EARLY XX CENTURY*)

**Xülasə.** 1828-ci ildə Rusiya və İran arasında bağlanan Türkmənçay müqaviləsindən sonra Azərbaycan Rusiyanın tərkibinə qatılmışdı. Bu hadisə onun iqtisadi, mədəni inkişafında irəliləyişə və tərəqqiyə yol açdı. XIX əsrin II yarısında Azərbaycanın bir çox sahələrində olduğu kimi iqtisadiyyatında, daxili və xarici ticarətdə müsbət dəyişikliklər baş verdi və bu da öz növbəsində mədəni tərəqqiyə, maarifçi ənənələrin inkişafına, yeni tipli məktəblərin, teatrın, mətbuatın yaranmasına, ölkədə savadsızlığın, geriliyin aradan qaldırılmasına, qızların təhsil almasına səbəb oldu. Bu dövrə qədər Azərbaycanda qadın təhsili sistemli xarakter daşımamış və bir çox hallarda təhsil gizli olmuş və məhdud dairədə evlərdə xüsusi savad görmüş şəxslər tərəfindən həyata keçirilmişdir.

***Açar sözlər:*** *qadın təhsili, qız məktəbi, maarifçilik, maarifpərvər qadınlar*

**Резюме.** После Туркменчайского договора между Россией и Ираном в 1828 году Азербайджан присоединился к России. Это событие проложило путь к прогрессу и развитию в его экономическом и культурном развитии. Во второй половине 19 века, как и во многих районах Азербайджана, произошли положительные изменения в экономике, внутренней и внешней торговле, что, в свою очередь, способствовало культурному прогрессу, развитию традиций просвещения, созданию новых школ, театра, развитию прессы, искоренению безграмотности и отсталости. До сих пор образование женщин в Азербайджане не было систематическим и во многих случаях предоставлялось людьми, не имеющими образования и получившими специальное образование дома в ограниченном кругу.

***Ключевые слова:*** *женское образование, школа для девочек, просвещение, просвещенные женщины.*

**Summary.** After the Turkmenchay Treaty between Russia and Iran in 1828, Azerbaijan joined Russia. This event paved the way for progress and development in its economic and cultural development. In the second half of the 19th century, as in many areas of Azerbaijan, positive changes took place in the economy, domestic and foreign trade, which in turn contributed to cultural progress, the development of enlightenment traditions, the establishment of new schools, theater, press, eradication of illiteracy and backwardness. caused to take. Until now, women's education in Azerbaijan has not been systematic and in many cases has been secretive and limited to a limited number of people who have received special education at home.

***Keywords****: women's education, girls' school, enlightenment, enlightened women*

Qadınların təhsili ilə dini təhsil almış qadınlar məşğul olmuşlar. Ötən əsrin 30-cu illərinə aid mənbələrdə qızların təhsili zamanı dini biliklərlə bərabər, dünyəvi biliklərin də öyrədilməsilə yanaşı qızlara evdarlıq, tikiş, rəsm, nəğmə kimi bacarıqların verilməsinə dair məlumatlara da rast gəlmək mümkündür.

H.Z. Tağıyevin əsasını qoyduğu qızlar məktəbi Azərbaycan qadınlarının həyatında dərin iz buraxmış və maarifçi qadınlar nəslinin yetişməsində böyük rol oynamışdır. Bu məktəbin məzunları olan gənc xanımlar ölkəmizin müxtəlif guşələrində bir çox belə məktəblərin yaradılmasının təşəbbüskarı kimi çıxış etmişlər. Qeyd etmək lazımdır, Hacı Zeynalabdin Tağıyevin qızlar məktəbi Azərbaycan qadınının sosial statusunun yüksəlməsinə təkan vermiş və xanımların cəmiyyətin tam hüquqlu üzvü kimi özlərini təsdiqləməsinə yol açmışdır. Tağıyev məktəbindən qalan ən dəyərli miras bu məktəbi bitirdikdən sonra görkəmli müəllim və maarifçi olan böyük xanımlar nəsli olmuşdur. Bu nəsil bütün regiona kübar və liberal maarifçiliyi gözəl ənənələrini yayan təhsilli azərbaycanlı qadınlarını bəxş etmişdir.

Xeyriyyəçi Hacı Zeynalabdin Tağıyev (1823-1924) tərəfindən əsası qoyulan və 9 oktyabr 1901-ci il tarixdə fəaliyyətə başlamış qızlar məktəb nəinki Rusiya İmperiyasında, hətta demək olar ki, bütün müsəlman dünyasında ilk belə məktəb idi.

Ümumiyyətlə, ötən əsrin 30-cu illərinə qədər Azərbaycanda qadın təhsili Bakı, Şuşa, Gəncə, Şamaxı, Nuxa, Zaqatala, Naxçıvan bölgələrində yaranmış, əsasən imkanlı və mütərəqqi fikirli şəxslərin övladlarına verilmişdir.

Bakı qızlar məktəbində olmuş N.S. Stepanova adlı bir müəllif yazırdı: «Bakıda ikən Xırdaxanım adlı bir qadının öz evində təşkil etdiyi məktəbə getdim. Çox gözəl, zərif və gənc bir qadındır. Dediyinə görə, ana dili, hesab, fars dili, tarix, nəğmə, rəsm, Quran və şəriət dərsləri keçir. Mənim xahişimə görə nəğmə dərsini keçdilər. Mən Şərq musiqisini başa düşməsəm də deyə bilərəm ki, müəllimə xanım qabil xanəndədir. Şagirdlər də gözəl oxuyurdular. Sonra qızların çəkdikləri şəkillərə, tikdikləri tikmələrə baxdım, oxumalarına qulaq asdım. Adam inana bilmir ki, bu qızları öyrədən xanım müəllim deyil, adi ev qadınıdır». (3, 213)

Azərbaycanın Rusiya tərəfindən işğal edilməsindən sonra qadın təhsili yeni forma və məzmun aldı. Burada qulluq edən hərbi və mülki qulluqçu ailələrinin məskunlaşmasına səbəb oldu və rus qız məktəblərinin yaradılmasına şərait yaratdı.

Azərbaycan ərazisində rus dilində ilk qız məktəbi 1848-ci il aprelin 30-da Şamaxıda açıldı və "Müqəddəs Nina" qız məktəbi adlandı. Elementar biliklər verən bu təhsil ocağı Qafqazın o zamankı canişini M.S. Vorontsovun həyat yoldaşı Y.K. Vorontsovanın təşəbbüsü ilə tərkibində azərbaycanlı qadınlar olan eyni adlı xeyriyyə cəmiyyəti tərəfindən açılmışdır.

"Müqəddəs Rimsipi" xeyriyyə cəmiyyətinin İrəvan şöbəsində fəaliyyət göstərən qabaqcıl azərbaycanlı qadınlar yeni məktəblərin açılması ilə bağlı bir çox işlər görmüşlər. Onların fəaliyyəti nəticəsində 1850-ci il yanvar ayının 1-də İrəvan şəhərində qız məktəbi açıldı və burada başqa millətlərin nümayəndələri ilə birlikdə azərbaycanlı qızlar da təhsil alırdılar.

60-cı illərdə keçirilən məktəb islahatından sonra 1864-cü il oktyabr ayının 1-də Zaqatalada 2-ci dərəcəli qız məktəbi açıldı. Burada təhsil pullu idi. Zaqatala qız məktəbi qısa müddət ərzində yerli əhalinin rəğbətini qazandı və 1904-cü ildə 4 sinifli Marinski qız məktəbinə çevrildi.

1875-ci il oktyabrın 26-da Şuşada xeyriyyə cəmiyyəti tərəfindən qız məktəbinin əsası qoyuldu. Tədris planına rus dili, hesab, tarix, coğrafiya, ana dilində oxu və yazı, rəsm və rəsmxətt, ümumi coğrafiya, ölkəşünaslıq daxil idi.

1884-cü il yanvar ayının 14-də Gəncə "Müqəddəs Nina" qadın xeyriyyə cəmiyyətinin təşəbbüsü ilə ilk qız məktəbi fəaliyyətə başladı. Azərbaycan ərazisində ilk dəmiryol məktəbi 1888-ci ildə Gəncə dəmir yolu stansiyasında açıldı və burada oğlanlarla bərabər, qızlar da təhsil almağa başladı.

Bu dövrdə qız məktəblərinin yaranması azərbaycanlı qızların dünyəvi təhsil alma ideyasının meydana gəlməsinə xeyli kömək göstərdi. Həm yeni rus məktəblərinin açılması, həm də inkişaf etməkdə olan milli mədəniyyətin və dövrün ictimai-mədəni, siyasi tələbləri azərbaycanlı qızlarının dünyəvi təhsilalma ideyasını sürətləndirirdi. Bu ideyanın ilk carçıları mütərəqqi azərbaycanlı ziyalıları idilər. Dünyəvi qadın təhsili ideyasının irəli sürülməsində böyük maarif-

çilər H. Zərdabi, M.T. Sidqi, C. Məmmədquluzadə, Eynəlibəy Sultanov böyük rol oynamışlar. Ötən əsrin 70-ci illərində azərbaycanlı qızları üçün ayrıca məktəb açmaq sahəsində ilk addımlar atıldı. Bu təşəbbüs H. Zərdabinin həyat yoldaşı Hənifə xanıma məxsus idi.

1909-cu ildə Bakıda ilk rus-tatar qız məktəbi açılmışdır. Ona Hənifə xanım Məlikova rəhbərlik edirdi. İlk müəllimlər isə A. Əfəndiyeva və Səkinə Axundzadə olmuşlar. Hənifə xanım və onun silahdaşları evləri gəzir və məktəb barədə maarifləndirici işlər aparırdılar. Hənifə xanımın təklifilə Rübabə Qasımovanın evində «Nicat» maarif cəmiyyətinin təşəbbüsü ilə Bakı şəhər qadın şöbəsi yaradılır. Bu şöbədə maarifçilik işini Xədicə Əlibəyova, Sürəyya Axundova, Sara Vəzirova, Sabirə xanım Əbdürrəhmanova, Xurşid Vəzirova və bir çox başqa qadınlar aparırdılar.

Azərbaycanda 1909-cu ildə dövlət tərəfindən açılan ilk ibtidai məktəb I rus-tatar qız məktəbi idi. Bu məktəbin müdiri Həsən bəy Zərdabinin həyat yoldaşı Hənifə xanım Məlikova idi. Burada Azərbaycanın ilk maarifpərvər qadınları: Şəfiqə xanım Əfəndizadə, Səkinə xanım Axundzadə ilə yanaşı ilk rus-müsəlman qız məktəbinin məzunları Ayna Musabəyova, Qumru Nərimanova, Asya Nərimanova və başqaları dərs deyirdilər. (4, 127)

Sonralar Bakıda azərbaycanlı qızlar üçün daha iki məktəb açıldı. II rus-tatar qız məktəbinə görkəmli dramaturq Nəcəfbəy Vəzirovun qızı Sara xanım Vəzirova, III rus-tatar qız məktəbinə isə Rəhilə xanım Hacıbabayova rəhbərlik edirdilər. Bu məktəbdə çalışan Səidə Şeyxzadə, Nigar Aslanova, Mina Aslanova, Sürəyya Vəzirova, Zəhra Ağayeva, Əminə Ağayeva, Tamara Axundova, Sürəyya Vəlibəyova, Məryəm Terequlova və başqaları Azərbaycanda qadın təhsilinin inkişafı naminə böyük işlər görmüşlər.

XIX əsrin sonlarında Azərbaycanda pedaqoji mühit və pedaqoji fikir sürətlə inkişaf edir, yeni mütərəqqi məktəblər açılır və yeni pedaqoji ideyalar yaranmağa başlayırdı. Naxçıvanda maarifçilik və yeni pedaqoji ideyalar böyük şair, pedaqoq və müəllim Məhəmməd Tağı Sidqi (1854-1903) əməli pedaqoji fəaliyyəti ilə daha da genişlənmişdir və o, yeni üsullu məktəblərin yaranması ilə Naxçıvanın pedaqoji mühitin mərkəzinə çevrilməsində böyük xidmətləri olmuşdur. Cəlil Məmmədquluzadə, Qurbanəlibəy Şərifzadə, Cümşüd-Paşa Sultanov, Mirzə Nəsrulla Əmirov, Əbülqasım Sultanov, M. Kəngərli, Eynəlibəy Sultanov, Mirzə Ələkbər Süleymanov və başqaları M.T. Sidqinin ən yaxın məsləkdaşları idilər. Onlar əhali arasında maarifləndirici işlər apararaq ədəbi-bədii məclislər qurur, qabaqcıl ziyalıların iştirakı ilə teatr tamaşaları göstərirdilər.

Bu dövrdə görkəmli maarifçi ziyalı, 1883-cü ildə Tiflis klassik gimnaziyasının məzunu Eynəlibəy Sultanov qadın azadlığı və bərabərliyini irəli sürən ilk mütərəqqi şəxsiyyətlərdən biri olmuşdur. Onun "Qadın", "Sahub və əşya" kimi məqalələri, xüsusilə "Tatarka" ("Azərbaycan qadını") adlı iki pərdəli komediyası qadın hüquq və azadlığına həsr edilmişdir.

Eynəli bəy Sultanov bu əsəri ilə Azərbaycan qadınını mərd, mübariz və azad görmək istəmişdir. Bu pyes Azərbaycan qadınının ağlına, zəkasına, gözəlliyinə həsr edilən ilk dəyərli tamaşa idi. Akademik İsa Həbibbəyli əsər haqqında belə yazır: "Tatarka" pyesi də ilk növbədə milli Azərbaycan mühiti və məişətindən doğmuşdur...Komediyadakı Sənəm M.F. Axundzadənin qadın obrazlarının yeni şəraitdəki davamı və inkişafıdır" (1, s. 192)

Bakıda və Tiflisdə fəaliyyət göstərən Azərbaycan maarifpərvərlərindən fərqli olaraq Naxçıvan ziyalıları qadınların azadlığı və maariflənməsi uğrunda mübarizəni daha mürəkkəb və çətin şəraitdə aparırdılar. Belə ki, burada onlar bir tərəfdən çarizmin Azərbaycanda yeritdiyi milli ayrı-seçkilik siyasətinə qarşı mübarizə aparır, digər tərəfdən xalqa maarifin, mədəniyyətin əhəmiyyətini izah edir, qadınların azadlığa çıxması, onların təhsilalmanın zəruriliyinə inandırırdılar.

Məhz belə bir dövrdə Naxçıvanda "Üsuli cədid" təliminin əsasını qoyan M.T. Sidqi bir xalq müəllimi və məktəbdar kimi 1892-ci ildə Ordubadda "Əxtər" (Ulduz) adlı yeni üsullu milli məktəb açdı. Bu məktəb xalqı irəliyə apararaq, onların sürətli inkişafında böyük rol oynamışdı.

M.T. Sidqi qızların və qadınlarının təhsilinə xüsusi fikir vermiş, onların azad, təhsilli olmalarına qayğı göstərmiş, qadın hüquqlarının müdafiəsi uğrunda onları mübarizəyə səsləmişdir. Onun qadın məsələsinə aid fikirləri "Əxlaq nümunələri", "Qızlara hədiyyə" dərsliklərində

"Rübabə", "Sitarə və xalası", "Analar bəzəyi" məqalə və hekayələrində öz əksini tapmışdır.

M.T. Sidqi qızların təhsil alması zəruriliyindən danışmaqla və yazmaqla kifayətlənməmiş, bu ideyalarını əməli olaraq həyata keçirmişdir. O, 1896-cı ildə Naxçıvan qəzasında ilk dəfə olaraq müsəlman qız məktəbini açmağa nail olmuşdur. XIX əsrin sonunda Naxçıvan kimi ucqar bir bölgədə, dindar bir yerdə qızlar üçün məktəb açmaq böyük hünər idi. Şəhərin din xadimlərinin, molla və müctəhidlərin hücumlarına baxmayaraq, Sidqi öz mütərəqqi fikirlərindən dönməmiş və qız məktəbinin açılmasına nail olmuşdur. Bu məktəbin açılmasında Naxçıvanın qabaqcıl maarifpərvərləri - Paşa Sultanov, Qurbanəli Şərifzadə, Əsədağa Kəngərli və başqaları yaxından kömək etmişlər. Sidqinin bu mütərəqqi fəaliyyəti Bakı maarifpərvər milyonçusu H.Z. Tağıyev tərəfindən təqdir edilmiş, məktəbin inkişafı və fəaliyyəti üçün maddi yardım göstərmiş, 1896-cı ildə Qız Məktəbini yaratmışdır. (2, 325)

Qadın təhsili ilə bağlı maraqlı faktlar M.S. Ordubadinin "Qanlı sənələr" əsərində öz əksini tapmışdır. Əsərdə göstərilir ki, Naxçıvan ziyalısı Məmmədqulu bəy Kəngərli öz şəxsi hesabına Qafqazda ilk dəfə olaraq "Leyli" qız məktəbini təsis etmişdir. Bu məktəb ibtidai təhsil deyil, gimnaziya tipli olaraq yüksək təhsil vermiş və buranı bitirənlər universitetə qəbul ola bilərdilər. "Leyli" qız məktəbində oxuyanların hamısı azərbaycanlı qızlar idilər. Bu təhsil ocağı 1905-ci ilədək fəaliyyət göstərmişdir.

Xalqın maarifləndirilməsində və tərəqqisində, oğlan və qızların təhsilə cəlb olunmasında böyük demokrat yazıçı C. Məmmədquluzadə həm əsərləri ilə, həm də pedaqoji fəaliyyəti ilə, bir yazıçı, bir xalq müəllimi və fəal maarifçi, ziyalı kimi geniş fəaliyyət göstərmişdir. O çalışdığı Nehrəm kənd məktəbində təlim-tərbiyə işlərini yenidən qurmuş, maarifçilik hərəkatını genişləndirmiş və məktəb təhsilini xeyli dərəcədə inkişaf etdirmişdi. Bu məqsədlə o, ilk növbədə məktəbdə şagirdlərin sayını xeyli artırmışdı. Nehrəm kimi dindar bir kənddə bu böyük hadisə idi.

Bütün bunlar Azərbaycanda qadın təhsili sahəsində atılan ilk addımlardan biri idi. Nehrəmdə oxumağa gələn Şərəbanı Adıgözəlova, Səkinə Cahangirova, Ümbül Qazıyeva, Səkinə Məmmədquliyeva, Xədicə Mehdixanova, Zəhra Mehdiyeva, Səkinə Mırzəməmmədova, Mina Mirzəməmmədova müsəlman dünyasında, məktəbə ayaq basan ilk müsəlman qız şagirdləri idilər.

Cəlil Məmmədquluzadənin həyat yoldaşı Həmidə xanım Cavanşir 1912-ci ildə Tiflisdə keçirilən qurultayda məruzə ilə çıxış edən ilk azərbaycanlı qadın olmuşdur.

Əsrin sonlarına doğru qadın təhsilinin zəruriyyəti təkcə şəhərlərdə deyil, kəndlərdə də özünü göstərirdi. Bir sıra qabaqcıl kənd müəllimləri dərs dedikləri oğlan məktəblərinə qızları da cəlb edirdilər. Bu məsələdə görkəmli yazıçı və pedaqoq C. Məmmədquluzadənin xidmətləri unudulmazdır. 1890-1897-ci illərdə Nehrəm kəndindəki iki sinifli məktəbin müdiri vəzifəsində çalışan C. Məmmədquluzadə qızların məktəbə cəlb edilməsinə xüsusi səy göstərmiş və buna nail olmuşdur.

XIX əsrin sonlarında Azərbaycan ziyalılarının qadın təhsili uğrunda mübarizəsi daha da genişlənirdi. İllər ötdükcə Azərbaycanda yeni-yeni məktəblər yaranır, oxumuş qızların sayı artırdı. 1909-cu ildə Gəncədə açılmış A. Adıgözəlov adına iki sinifli rus-tatar qız məktəbi də Azərbaycan maarifi tarixində diqqətəlayiq rol oynamışdır. Görkəmli pedaqoq Xədicə xanım Ağayevanın başçılıq etdiyi bu məktəbdə Xuraman Rəhimbəyzadə, Simuzər Zamanova kimi qabaqcıl qadınlar dərs deyirdilər.

Azərbaycan maarifçilərinin qadın təhsili uğrunda apardıqları mübarizə öz bəhrələrini verməyə başlayırdı. 1908-1909-cu illərdə Azərbaycanın, və Zaqafqaziyanın bir sıra yerlərində həm dövlət, həm də cəmiyyətlər tərəfindən yeni Azərbaycan qız məktəbləri açılırdı.

Bu dövrdə Şəkidə, Ağdamda, Şuşa qəzasının Malıbəyli kəndində, Qarğabazarda, Cəbrayılda, Zəyəmdə, Bakının Balaxanı, Zabrat, Keşlə kəndlərində və başqa yerlərdə ibtıdai qız məktəbləri açılmış və burada qadın müəllimlər dərs deməyə başlamışdılar.

Bu tədris ocaqlarında qadın müəllimlərə böyük ehtiyac vardı. Azərbaycanda pedaqoji kadrlar hazırlayan qız təhsil ocaqları isə yox idi. Uzun yazışmalardan sonra, nəhayət, 1915-ci ildə Bakıda Aleksandrinski rus-müsəlman qız məktəbinin nəzdində ikiillik pedaqoji kurslar açmaq mümkün olmuşdu.

Azərbaycanın maarifpərvər qadınları o dövrdə yalnız müəllimlik etməklə və dərs de-

məklə öz vəzifələrini bitmiş hesab etmirdilər. Onlar qapı-qapı düşüb qadınlar arasında maarifpərvər söhbətlər aparır, maarifin əhəmiyyətini başa salır, qızları məktəbə cəlb edir, xeyriyyə cəmiyyətləri vasitəsilə kasıb şagirdlərə maddi yardım göstərirdilər.

**Problemin aktuallığı:** Bu məqalənin aktuallığı ondan ibarətdir ki, burada qadın təhsili və tərbiyə geniş şəkildə araşdırılmışdır. Qadın təhsili və tərbiyəsi hər zaman bütün dövrlər üçün aktual olacaqdır.

**Problemin elmi yeniliyi:** Bu mövzuda geniş araşdırmalar və ideyalar məhz bu məqalədə işıqlandırılmışdır.

**Problemin tətbiqi əhəmiyyəti:** Qadın təhsilinin inkişafında irəli sürülən bir çox fikirlər müxtəlif tədqiqatlarda istifadə oluna bilər.

**Ədəbiyyat:**

1. Həbibbəyli, İ. Cəlil Məmmədquluzadə: mühiti və müasirləri / İ. Həbibbəyli. –Naxçıvan. -2009. -424 s.
2. Hüseynzadə, R.L. Azərbaycan məktəb və pedaqoji fikir tarixi: Dərs vəsaiti / R.L. Hüseynzadə. -Bakı: ADPU, -2020. -538 s.
3. Seyidov, Ə. Azərbaycanda pedaqoji fikrin inkişafı tarixindən / Ə. Seyidov. -Bakı: Azərhəşr, -1958. -310 s.
4. Zərdabi, H. Seçilmiş əsərləri / H. Zərdabi. -Bakı: Azərnəşr, -1960. -475 s.

**E-mail:** nubar2017@list.ru

**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* **R.L. Hüseynzadə,**
*ped.ü.fəls.dok.* **İ.B. Əmirəliyeva**

**Redaksiyaya daxil olub:** 28.04. 2021.